DOI: https://doi.org/10.36719/2663-4619/117/52-57

**Aysu Musayeva**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-4501-9454
aysu.musayeva289@gmail.com

# Büyükadada davamlı turizm modeli

## Xülasə

Bu məqalədə İstanbulun Adalar bölgəsində yerləşən və turizm baxımından ən çox ziyarət edilən bölgələrindən biri olan Büyükadada davamlı turizm modelinin tətbiq imkanları araşdırılmışdır. Ada təbii və mədəni zənginlik baxımından üstünlüklərə malik olsa belə, son illərdə nəzarətsiz və mövsümi turizm fəaliyyəti nəticəsində ciddi ekoloji - sosial təziqlərlə üz-üzə qalmışdır. Araşdırmanın əsas məqsədi, bu təziqləri azaltmaqla yanaşı, adada yerli icmaların rifahını və təbii resursların qorunmasını təmin edən uzunmüddətli və balanslı bir turizm modelinin formalaşdırılması üçün praktiki yanaşmaları təklif etməkdir.

Tədqiqat çərçivəsində davamlı turizmin əsas komponentləri olan ekoloji davamlılıq, sosial-mədəni inteqrasiya və iqtisadi balans prinsipləri əsas götürülmüş, yavaş turizm, ekoturizm və təcrübə əsaslı turizm kimi alternativ turizm modellərinin Büyükada kontekstində tətbiq imkanları təhlil olunmuşdur. Həmçinin yerli idarəetmənin, qeyri-hökumət təşəbbüslərinin və cəmiyyətin aktiv iştirakının bu modelin qurulmasında mühüm rol oynadığı göstərilmişdir.

Nəticə olaraq, Büyükada üçün turizmin daşıma tutumuna əsaslanan planlı idarəetməsi, mədəni irsin qorunması, yerli resurslardan səmərəli istifadə və sosial rifahın təmin olunması ilə mümkün olan davamlı turizm modelinin inkişaf etdirilməsi təklif olunur. Bu yanaşma yalnız Büyükada üçün deyil, digər ada tipli turizm məkanları üçün də nümunəvi çərçivə kimi qiymətləndirilə bilər (Королёва & Федоров, 2020)

***Açar sözlər:*** *Davamlı turizm, Ekoturizm, Yavaş turizm, Təcrübə əsaslı turizm, Daşıma tutumu, Turizm strategiyaları, Alternativ turizm növləri*

**Aysu Musayeva**
Baku State University
Master's student
https://orcid.org/0009-0009-4501-9454
aysu.musayeva289@gmail.com

# Sustainable Tourism Model in Buyukada

## Abstract

This study explores the implementation potential of a sustainable tourism model on Büyükada, the largest and most visited island of the Princes' Islands in Istanbul. Although the island offers remarkable natural and cultural richness, the increasing pressure from unregulated and seasonal tourism activities in recent years has led to serious environmental and social challenges. The main aim of this research is to identify practical strategies for establishing a long-term, balanced tourism model that protects natural resources while supporting the well-being of local communities.

The analysis is grounded in the three pillars of sustainable tourism — ecological sustainability, socio-cultural integration, and economic balance — and evaluates the applicability of slow tourism, ecotourism, and experiential tourism within the specific context of Büyükada. The study highlights the importance of local governance, civil society initiatives, and active community participation in shaping a sustainable tourism vision.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

As a result, it is proposed that a sustainable tourism model for Büyükada should be based on carrying capacity management, preservation of cultural heritage, efficient use of local resources, and inclusive social development. This approach can serve not only as a roadmap for Büyükada, but also as a replicable framework for other island-based tourism destinations.

***Keywords:*** *Sustainable tourism, Ecotourism, Slow tourism, Experiential tourism, Carrying capacity, Tourism strategies, Alternative forms of tourism*

## Giriş

Müasir dövrdə turizm sektoru yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də ətraf mühitin qorunması, yerli icmaların rifahı və mədəni irsin davamlılığı baxımından strateji əhəmiyyət daşıyan fəaliyyət sahəsi kimi qiymətləndirilir. Xüsusilə urbanizasiyanın inkişaf etdiyi, təbii resursların tükənmə riski ilə qarşı-qarşıya qaldığı günümüzdə, turizmin davamlı inkişaf prinsipləri əsasında təşkili zərurətə çevrilmişdir. Bu kontekstdə adalar, həm coğrafi izolyasiyaları, həm də məhdud resurs imkanları səbəbilə xüsusi diqqət tələb edən bölgələrdən biridir (UNWTO, 2018).

İstanbulun dəniz sahili nadir bölgələrindən biri olan Büyükada, tarixi mirası, unikal təbiəti və mədəni müxtəlifliyi ilə uzun illərdir turistlərin diqqətini cəlb edən məkandır. Lakin bu cazibə mərkəzi zamanla artan ziyarətçi sayı və nəzarətsiz turizm fəaliyyəti nəticəsində ciddi ekoloji və sosial təziqlərə məruz qalmışdır. Nəqliyyat sıxlığı, tullantı idarəetməsi, yerli əhalinin gündəlik həyat ritminin pozulması kimi problemlər, ada həyatının dayanıqlılığını təhlükəli hala gətirir.

Bu məqalənin məqsədi, Büyükadada davamlı turizm modeli anlayışını nəzəri və praktiki çərçivədə araşdırmaq, mövcud vəziyyəti təhlil edərək problemləri müəyyənləşdirmək və yerli idarəetmə orqanlarının, turizm aktorlarının və cəmiyyətin iştirakı ilə həyata keçirilə biləcək alternativ həll yollarını təklif etməkdir. Bu yanaşma, sadəcə Büyükada üçün deyil, ümumilikdə ada tipli turizm mərkəzləri üçün də nümunəvi model təqdim etmək potensialına malikdir.

**Tədqiqat**

Büyükada, İstanbul Böyükşəhər Bələdiyyəsinə bağlı ən böyük və ən tanınmış adasıdır. Mərmərə dənizində yerləşən bu ada, təxminən 5.4 kvadrat kilometr ərazini əhatə edir və həm təbii gözəllikləri, həm də tarixi irsi ilə fərqlənir. XIX əsrin sonlarından etibarən şəhər aristokratiyasının yay istirahət məkanı kimi tanınmağa başlayan Büyükada, bu gün də həm yerli, həm də xarici turistlər üçün cazibədar bir səyahət nöqtəsinə çevrilmişdir.

Büyükada, həm dağlıq, həm də düzənlik ərazilərin vəhdət təşkil etdiyi müxtəlif landşaft quruluşuna malikdir. Adanın şimal hissəsi daha çox yaşayış və ticarət fəaliyyətlərinin cəmləşdiyi ərazi olsa da, cənub hissəsində təbii meşə sahələri, gəzinti yolları və sakit təbiət guşələri yerləşir. Bu müxtəliflik həm aktiv turizm, həm də istirahət yönümlü turizm növləri üçün əlverişli şərait yaradır.

Büyükada yalnız təbiəti ilə deyil, həm də çoxqatlı mədəni və dini mirası ilə də zəngindir. Ada ərazisində yerləşən Aya Yorgi Monastırı, Hamidiye Camii, Yahudi məzarlığı, Rum və Ermeni mənşəli tarixi binalar bu coğrafiyanın bir dövr mozaikasına çevrildiyini göstərir. Həmçinin burada yerləşən taxta memarlıq nümunələri (xüsusilə Rum Yetimxanası, Avropanın ən böyük taxta tikilisi olaraq tanınır) təkcə arxitektura deyil, həm də mədəni turizm baxımından böyük əhəmiyyət kəsb edir.

Turizmin bu zəngin mədəni və təbii fondan bəhrələnməsi təbiidir. Lakin son illərdə xüsusilə yaz və yay aylarında artan turist axını, yerli infrastruktura və ətraf mühitə təziqləri də artırmışdır. Bu təziqlər, adada davamlı turizmin nə qədər zəruri olduğunu bir daha göstərir. Belə bir zəmin, həm riskləri doğru anlamağı, həm də dayanıqlı həll yollarını sistemli şəkildə qurmağı zəruri edir.

Adada avtomobil nəqliyyatının qadağan olunması və nəqliyyat vasitəsi kimi əsasən elektrikli nəqliyyat və velosipedlərdən istifadə olunması, buranı digər şəhər ərazilərindən fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Bu xüsusiyyət ilk baxışda ekoloji baxımdan müsbət təsir yaratsa da, turizm təziqinin artması ilə birlikdə bu modellər də ciddi şəkildə yenidən qiymətləndirilməlidir.

Büyükada əhalisi ilin fərqli dövrlərində dəyişkənlik göstərir. Qış aylarında ada sakinlərinin sayı azalsa da, yay mövsümündə bu say bir neçə dəfə artır, bu da adanın sosial-iqtisadi strukturuna ciddi şəkildə təsir edir. Yerli əhali əsasən turizm, xidmət və daşınma sektorlarında fəaliyyət göstərir. Turizm

təkcə gəlir mənbəyi kimi deyil, həm də yerli mədəniyyətin və ənənələrin qorunması baxımından da bir platforma funksiyası daşıyır.

Bununla belə, turizmin sürətli artımı bir sıra problemləri də gündəmə gətirir. Adada tullantı idarəçiliyi, su ehtiyatlarının tükənməsi, təbii mühitin pozulması, mövsümi yüklənmə və mədəni irsin kommersiyalaşdırılması kimi risklər getdikcə daha çox müzakirə olunmağa başlayıb. Bu baxımdan, yalnız turizmin təşviqi deyil, onun davamlı və idarəolunan formada inkişaf etdirilməsi zərurəti yaranır.

Davamlı turizm, yalnız bu günün deyil, gələcək nəsillərin də ehtiyaclarını nəzərə alan və turizmin ətraf mühitə, yerli icmalara və iqtisadi sistemə mənfi təsirlərini minimuma endirməyə yönəlmiş bir inkişaf modelidir. Bu yanaşmanın əsas məqsədi təbiəti və mədəniyyəti qorumaqla yanaşı, sosial rifahı və iqtisadi davamlılığı da təmin etməkdir. Davamlı turizm konsepsiyası Ümumdünya Turizm Təşkilatı (UNWTO) tərəfindən dəstəklənir və üç əsas sütun üzərində qurulmuşdur: ekoloji davamlılıq, sosial-mədəni davamlılıq və iqtisadi davamlılıq.

Ekoloji davamlılıq, təbii ehtiyatların mühafizəsi və ətraf mühitin qorunmasını nəzərdə tutur. Büyükada bu baxımdan son dərəcə həssas bölgədir (Pirozhkova, 2017). Meşəlik sahələr, dəniz ekosistemləri və təmiz hava keyfiyyəti adanı cazibədar edən əsas elementlərdəndir. Lakin yaz aylarında gündəlik ziyarətçi sayının on minlərlə nəfərə çatması, bu həssas tarazlığı pozma riski yaradır.

Adada tullantıların idarə olunması, su ehtiyatlarının qorunması və sahil bölgələrinin çirklənməsinin qarşısının alınması üçün daha sistemli yanaşmalara ehtiyac duyulur. Məsələn, təkrar emal sistemlərinin genişləndirilməsi, su sərfiyyatını azaldan texnologiyaların təşviqi və kütləvi turizm yerlərində gediş-gəlişin nəzarətli şəkildə tənzimlənməsi bu istiqamətdə atıla biləcək vacib addımlardır (Dodds & Butler, 2010).

Davamlı turizmin əsas prinsiplərindən biri də yerli icmaların iştirakını və mədəni dəyərlərin qorunmasını təmin etməkdir. Büyükada tarix boyu fərqli dini və etnik icmaların bir arada yaşadığı nadir bölgələrdən biri olmuşdur. Bu unikal sosial struktur həm mədəniyyət turizmi baxımından zənginlikdir, həm də qorunması lazım olan bir mirasdır.

Adada yaşayan əhalinin turizm fəaliyyətlərinə fəal şəkildə cəlb olunması, onların iqtisadi və sosial rifahına töhfə verməklə yanaşı, mədəni kimliyin qorunmasına da xidmət edir. Bu baxımdan, yerli sənətkarlıq, mətbəx mədəniyyəti, bələdçilik xidmətləri və festival kimi mədəni tədbirlərin turizm strategiyasına daxil edilməsi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, sürətli turizm inkişafının yerli həyat ritmini pozmaması üçün sosial təsir analizləri aparılmalı və qərarlar iştirakçı demokratiya prinsipi ilə qəbul edilməlidir.

Turizmin iqtisadi faydaları yalnız qısamüddətli gəlir mənbəyi ilə məhdudlaşmamalıdır. Əksinə, davamlı iqtisadi model uzunmüddətli sabitlik, yerli sahibkarlığın inkişafı və mövsümi asılılığın azaldılması üzərində qurulmalıdır. Büyükada kontekstində bu, kiçik və orta sahibkarlığın (KOB) dəstəklənməsi, yerli məhsulların və xidmətlərin təşviqi, eyni zamanda "yüksək sezonda" gələn turist axınının daha bərabər paylanması üçün tədbirlərin görülməsi ilə həyata keçirilə bilər.

Adada tətbiq edilə biləcək "yavaş turizm" (slow tourism), "ekoturizm" və "təcrübə əsaslı turizm" kimi modellər, həm yerli icmanın gücləndirilməsinə, həm də turistlərlə ev sahibi icmalar arasında daha dərin əlaqənin qurulmasına şərait yaradır. Bu modellər, kütləvi turizmin yaratdığı təzyiqləri azaltmaqla yanaşı, gəlirlərin daha ədalətli şəkildə bölgəyə yayılmasını da təmin edir (Guiver & McGrath, 2016; Moira, Mylonopoulos & Kondoudaki, 2017).

Yavaş turizm (slow tourism), sürətli, tələsik və kommersiyalaşmış səyahət anlayışına qarşı alternativ kimi ortaya çıxan, keyfiyyətə üstünlük verən, yavaş tempdə, dərin təcrübəyə əsaslanan bir turizm modelidir. Əsas prinsiplərinə turistin az, lakin uzun müddətli qalması, yerli mədəniyyət, qida, həyat tərzi ilə tanışlıq, sakitlik, balans və stressiz gedişat, sürətli istehlakdan uzaq durmaq, dayanıqlı nəqliyyat vasitələrinin istifadəsi (velosiped, yeriyiş, ictimai nəqliyyat) aiddir. Məsələn, turistlərə ada həyatının ritminə uyğunlaşmaq, kütləvi yerlərdən uzaq kənd içi marşrutlar, günü birlik deyil, 2–3 günlük qalmaq təşviq oluna bilər. Əlavə olaraq, ev muzeyləri, yerli sənətkarlıq dükanları bu modelin dəstəkçisi ola bilər (Yurtseven & Kaya, 2011).

Ekoturizm, təbiətə əsaslanan, ətraf mühiti qorumağı və yerli icmaların rifahını təşviq edən bir turizm növüdür. Burada məqsəd, həm təcrübə qazanmaq, həm də təbiəti dəstəkləməkdir. Əsas xarakterik xüsusiyyətləri, təbii mühitə zərər vermədən fəaliyyət (dağ yürüşləri, müşahidə, fotoqrafiya), yerli icmaların iştirakı və qazancı, təbiətə dair maarifləndirmə funksiyası, zəruri olduqda ətraf mühitin qorunmasına maddi töhfə qatmaqdır. Büyükadada bu modelin tətbiqi - meşəlik sahələrdə təlimatlı ekoturlar (bələdçi ilə), biomüxtəlifliyin müşahidəsi, təbii resursların qorunması ilə bağlı maarifləndirmə panelləri, sahil zolaqlarının təmizliyi, sahil bələdçiliyi, "leave no trace" siyasəti, ekoloji otellər və ya pansiyonlar yaratmaq kimi ola bilər (Weaver, 2005).

Təcrübə əsaslı turizm, turistin passiv müşahidəçi olmaqdan çıxaraq fəal şəkildə yerli həyatın içində təcrübə yaşamasına əsaslanan turizm növüdür. Mədəniyyətə "toxunmaq" və onu praktik yaşamaq əsas məqsəddir. Əsas nümunələri: yerli yeməklərin hazırlanmasında iştirak etmək, sənətkarlıq və folklor fəaliyyətlərinə qatılmaq, yerli ailələrlə birgə kənd təsərrüfatı işləri görmək, dil, mətbəx və həyat tərzi kurslarına qatılmaq kimi ola bilir. Büyükada üçün tətbiqinə gəldikdə, turistlər üçün yerli ailələrdə gün keçirmək, rum-erməni-türk mətbəxinin ortaq nümunələrini hazırlamaq, tarixi evlərin və sənət emalatxanalarını açıq studiyaya çevirmək, şərabçılıq, bağçılıq və təbiət təcrübələri ilə məşğul olmaq, mədəni tədbirlər və kiçik festivallarda aktiv iştirak etmək kimi nümunələr göstərə bilərik (Moira, Mylonopoulos & Kondoudaki, 2017).

Böyükada, mövcud turizm təziqləri ilə davamlılıq arasında həssas bir balans axtarışındadır. Bu keçidin uğurla baş verməsi üçün yalnız ümumi prinsiplərlə kifayətlənmək olmaz, konkret və lokal şəraitə uyğunlaşdırılmış strategiyaların tətbiqi vacibdir. Həm dövlət qurumlarının təşəbbüsləri, həm yerli idarəetmənin planlamaları, həm də ictimai cəmiyyətin və qeyri-hökumət təşkilatlarının iştirakı bu keçidin əsas dayaq nöqtələrini təşkil edir.

İstanbul Böyükşəhər Bələdiyyəsi son illərdə adalarda nəzarətsiz kütləvi turizmin yaratdığı problemləri azaltmaq üçün bir sıra tədbirlər həyata keçirmişdir. Bunlar arasında faytonların ləğvi və elektrikli nəqliyyat vasitələrinin tətbiqi, turist axınının monitorinqi və adaya nəqliyyatın tənzimlənməsi kimi addımlar xüsusi qeyd olunmalıdır (Demiroğlu & Çetin, 2007).

Davamlı turizm modelinə keçid üçün bu cür inzibati tədbirlər daha strateji yanaşmalarla tamamlanmalıdır. Məsələn; turizm daşıma tutumu (carrying capacity) hesablanaraq, günlük maksimum turist sayı müəyyənləşdirilə bilər. Daha sonra, ziyarətçi yönləndirmə sistemləri yaradılaraq, adanın daha az ziyarət olunan bölgələrinə maraq yönəldilə bilər və əlavə olaraq davamlı turizm üzrə yerli fəaliyyət planı hazırlanaraq, strateji addımlar konkret zaman cədvəlinə bağlanmalıdır.

## Nəticə

Büyükadada bəzi sakinlər və yerli təşkilatlar artıq davamlılıq yönümlü fəaliyyətlərə başlamışdır. "Adalı Girişimi" kimi təşəbbüslər, ətraf mühitin qorunması, tullantıların azaldılması və yerli məhsulların təşviqi yönündə maarifləndirmə işləri aparırlar. Eyni zamanda bəzi butik otel və kafe sahibləri eko-etiketlər, yerli məhsul menyuları və plastiksiz xidmət kimi tətbiqlərilə fərqlənirlər.

Bu cür təşəbbüslərin genişləndirilməsi və dəstəklənməsi üçün aşağıdakı addımlar daha da faydalı ola bilər:

1. Müvafiq təlim proqramları ilə yerli sahibkarların davamlı turizm bilikləri artırılmalı;
2. Sertifikatlaşdırma sistemləri tətbiq edilərək ekoloji və sosial məsuliyyətli müəssisələr stimullaşdırılmalı;
3. Yerli icmalarla birgə qərar qəbuletmə mexanizmləri yaradılmalı, xüsusilə qadınlar və gənclər bu prosesə cəlb olunmalıdır.

Büyükada üçün klassik dəniz-günəş turizminə alternativ kimi aşağıdakı turizm modelləri uyğun və davamlı hesab oluna bilər:

1. Ekoturizm: Təbiətə zərər vermədən, bələdçili yürüşlər, təbiət müşahidəçiləri və velosiped marşrutları kimi fəaliyyətləri əhatə edir (Weaver, 2005).
2. Mədəniyyət turizmi: Adanın çoxmədəniyyətli keçmişi, memarlıq nümunələri və dini ibadət məkanları bu modelin əsasını təşkil edir.

3. Yavaş turizm ("slow tourism"): Turistlərin daha uzun müddət adada qalması, yerli həyatla daha yaxından tanış olması və sürətli istehlak vərdişlərindən uzaq durması təşviq olunur (Guiver & McGrath, 2016).
4. Aqroturizm: Kiçik meyvə bağı, üzümçülük və bağçılıq sahələrində turistlərə təcrübə yaşatmaq potensialı mövcuddur.

Bütün bu strategiyalar yalnız nəzəri səviyyədə qalmamalı, konkret tədbir və siyasətlərlə dəstəklənməlidir. Büyükadada davamlı turizm modelinin həyata keçirilməsi, bir tərəfdən bu unikal adanın qorunmasına, digər tərəfdən isə yerli icmanın rifahına və turizm sektorunun gələcəyinə müsbət təsir göstərəcəkdir (Akbulut Özpay, 2019).

Böyükada özünəməxsus təbiəti, zəngin tarixi və mədəni irsi ilə İstanbulun ən qiymətli turizm məkanlarından biridir. Lakin bu gözəllik və cazibə, zamanla turizmin nəzarətsiz inkişafı nəticəsində ciddi təziqlərə məruz qalmış, həm ekoloji tarazlıq, həm də yerli icmaların gündəlik həyatı üçün problemlər yaratmağa başlamışdır (Arıkan & Aksoz, 2007). Bu tədqiqat göstərdi ki, Büyükada kimi məhdud əraziyə malik ada bölgələrində turizmin yalnız iqtisadi aspektlərinə deyil, onun sosial və ekoloji təsirlərinə də diqqətlə yanaşmaq zərurətdir (Butler, 1999).

Davamlı turizm yanaşması, bu kimi bölgələr üçün qısa müddətli gəlir gözləntilərindən daha çox, uzunmüddətli balans və qoruma hədəfləri üzərində qurulmalıdır. Büyükada üçün tətbiq oluna biləcək davamlı turizm modeli, yalnız turist axınının tənzimlənməsi ilə kifayətlənməməli, həm də yerli icmanın rifahı, mədəni irsin qorunması və təbii resursların məsuliyyətli istifadəsini də əhatə etməlidir (Akbulut Özpay, 2019).

Tövsiyələr:

1. Turizm daşıma tutumu (carrying capacity) müəyyən edilməli və gündəlik ziyarətçi sayı nəzarət altına alınmalıdır. Bu yanaşma həm infrastrukturun yüklənməsinin qarşısını alacaq, həm də ziyarətçi təcrübəsini keyfiyyətcə yaxşılaşdıracaqdır.
2. Ekoloji maarifləndirmə və təkrar emal infrastrukturu gücləndirilməlidir. Turistlər və yerli sakinlər üçün ətraf mühitə dair təlimatlar hazırlanmalı, plastik istifadəsi minimuma endirilməli və tullantıların çeşidlənməsi genişləndirilməlidir.
3. Yerli icmalar davamlı turizm planlamasına fəal şəkildə cəlb olunmalıdır. Sakinlərin mədəni və iqtisadi maraqları nəzərə alınmalı, onların bilavasitə iştirakı ilə turizm strategiyaları hazırlanmalıdır (Korolova, Fedorov, 2020).
4. Alternativ turizm növləri təşviq edilməlidir (ekoturizm, "yavaş turizm" (slow tourism) və b.) Bu yanaşmalar adanın təbiətinə və mədəni kimliyinə uyğun olaraq turizmin dəyər əsaslı inkişafını təşviq edir (Guiver & McGrath, 2016; Weaver, 2005).
5. Bələdiyyə və qeyri-hökumət təşkilatları ilə birgə davamlı turizm üzrə yol xəritəsi hazırlanmalıdır. Bu sənəd konkret hədəfləri, tədbirləri və məsul tərəfləri müəyyən etməklə, daha sistemli və ölçüləbilən nəticələrə yol açacaqdır.

Büyükada yalnız turizm obyekti deyil, həm də yaşayan sosial - ekoloji sistemdir. Onun davamlı inkişafı üçün atılan hər bir addım, həm bu günün ziyarətçilərinə daha dəyərli təcrübə təqdim edəcək, həm də sabahın sakinlərinə daha yaşanabilir bir ada miras qoyacaq. Turizm yalnız getmək və görmək deyil, eyni zamanda qorumaq və paylaşmaq mədəniyyətidir. Büyükada da məhz bu mədəniyyətin simvollarından biri ola bilər.

## Ədəbiyyat

1. Akbulut Özpay, G. (2019). *Alternative tourism in Turkey: Role, potential development and sustainability*. GeoJournal Library 121. https://www.academia.edu/41519333/
2. Arıkan, İ., & Aksoz, E. O. (2007). *An approach for sustainable tourism development at the destination: Büyükada (Prinkipo), Istanbul*. Anadolu University, School of Tourism and Hotel Management. https://www.academia.edu/10143261/
3. Demiroğlu, O. C., & Çetin, G. (2007). *The sustainable development of tourism in islands – the case of Büyükada – Istanbul*. https://www.researchgate.net/publication/273346314/

4. Yurtseven, H. R., & Kaya, O. (2011). *Slow tourists: A comparative research based on Cittaslow principles*. *American International Journal of Contemporary Research*, 1(2), 91–98.
5. Butler, R. W. (1999). Sustainable tourism: A state-of-the-art review. *Tourism Geographies*, 1(1), 7–25. https://doi.org/10.1080/14616689908721291
6. Dodds, R., & Butler, R. (2010). *Barriers to implementing sustainable tourism policy in mass tourism destinations*. *Tourismos: An International Multidisciplinary Journal of Tourism*, 5(1), 35–53. https://www.chios.aegean.gr/tourism/VOLUME_5_No1_art2.pdf
7. Guiver, J., & McGrath, P. (2016). Slow tourism: Exploring the discourses. *Dos Algarves: A Multidisciplinary e-Journal*, 28, 73–88.
8. Moira, P., Mylonopoulos, D., & Kondoudaki, A. (2017). The application of slow movement to tourism: Is slow tourism a new paradigm? *Journal of Tourism and Leisure Studies*, 2(2), 1–12.
9. UNWTO. (2018). *Tourism for sustainable development in least developed countries*. United Nations World Tourism Organization. https://www.unwto.org/publication/tourism-sustainable-development-ldcs
10. Weaver, D. (2005). Comprehensive and minimalist dimensions of ecotourism. *Annals of Tourism Research*, 32(2), 439–455.
11. Korolova, N. A., & Fedorov, V. A. (2020). Razvitiye ustoychivogo turizma v malykh territoriyakh: problemy i perspektivy. *Nauchnyy zhurnal NIU ITMO*. Seriya: Ekonomika i ekologicheskiy menedzhment, 3, 55–62. https://economics.ihbt.ifmo.ru/file/article/20163.pdf
12. Pirozhkova, I. M. (2017). Ustoychivoye razvitiye turizma: teoriya i praktika. *Vestnik Tomskogo gosudarstvennogo universiteta. Ekonomika,* 38, 123–132. https://doi.org/10.17223/19988648/38/12
13. Fedorov, A. N. (2019). Ekologicheskiy turizm: sovremennoye sostoyaniye i napravleniya razvitiya. *Vestnik Sankt-Peterburgskogo universiteta. Seriya 7: Geologiya*. Geografiya, 2, 95–104. https://doi.org/10.21638/spbu07.2019.207